**UOT 39 (4/9)**

**GÜLZADƏ ABDULOVA**

# AZƏRBAYCANIN SÜFRƏ MƏDƏNİYYƏTİNDƏ MİS QABLARIN YERİ (MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYININ MATERİALLARI ƏSASINDA)

***Açar sözlər:*** *mis qablar, süfrə mədəniyyəti, süfrə qabları, muzey fondları*

Son dövrlər Azərbaycanda maddi-mədəni irsimizə dövlət qayğısının artdığı, milli-mənəvi sərvətlərimizin (xalça, muğam, tar) dünya səviyyəsində tanındığı, təbliğ olunduğu, etnodəbin gündəmə gəldiyi, azərbaycançılıq milli ideologiyasının formalaşma prosesi keçirdiyi tarixi bir dövrdə hər birimizin üzərinə ulularımızın yaratdığı və bizə miras qoyduğu zəngin tarixi-mədəni irsə sahib çıxmaq, onu dərindən öyrənmək və təbliğ etmək, yad əllərə düşməsinin qarşısını almaq, gələcək nəsillərə sağlam şəkildə, zədəsiz ötürmək kimi mühüm bir vəzifə düşür. Bu maddi-mədəni irs siyahısında süfrə mədəniyyətimizin də özünəməxsus yeri vardır. Xalqımız daim qonaq-qaraya xüsusi hörmət göstərmiş, bol nemətli açıq süfrəsi ilə tanınmışdır. Təsadüfi deyil ki, 1300 illik tarixə malik "Kitabi-Dədə Qorqud" dastanında süfrə açmaq, qonaqlı-qaralı olmaq igidliklə eyni ölçülür, mərdlik əlaməti sayılırdı. Dədə Qorqudun dilindən səslənən "Könlin yuca tutan ərdə dövlət olmaz", "Ər, malına qıymayınca adı çıqmaz", "Oğul atadan görməyincə süfrə çəkməz", "Qonuğı gəlməyən qara evlər yıqılsa, yeg!", "Mərd igidlər süfrə açar, ad alar"- kimi hikmətli sözlər bu günümüzə qədər aktuallığını itirməmişdir. Bu gün də əliaçıq, səxavətli insanlar "mərd adamdır", "açıq süfrəlidir", "gen süfrəli, açıq ürəklidir", "bol süfrəlidir", "qonaqlı-qaralıdır", "qapısı həmişə qonağın üzünə açıqdır"- deyə tərif edilir.

Süfrə mədəniyyətimizin vacib ünsürlərindən biri olan süfrə qabları barədə məlumatlara şifahi xalq ədəbiyyatı nümunələrində, miniatürlərdə, klassiklərin əsərlərində rast gəlirik. Zəngin etnoqrafik mənbə rolunu oynayan "Kitabi-Dədə Qorqud" dastanında Oğuz bəylərinin süfrəsinə düzülən qabların bəzisi haqqında məlumat alırıq: "Ağzı böyük xümrələr (küpəlr) ortalığa salınmışdı. Döquz yerdə badyalar qurılmışdı. Altun ayaq sürahilər dizilmişdi, kafır qızları al şərabı altun ayağla Qalın Oğuz bəglərinə gəzdirərlərdi" (15, s.78).

Xalqımızın qonaqpərvərliklə bağlı nəcib adətlərini dahi Nizami öz əsərlərində belə izah edir:

*Kim gəlsəydi, atının cilovunu tutardılar*
*Qaydayla süfrə açardılar.*
*Ona layiq mehmannəvazlıq edərdilər,*
*Onun öz şanına görə qonaqlıq verərdilər* (21, s.120).



Bu misralar xalqımızın "mənəvi-əxlaqi keyfiyyətlərinin aynası" (5, s.143) hesab edilən qonaqpərvərliyin çox qədim köklərə dayandığını təsdiq etməklə yanaşı, qonağın ağırlanması üçün ev sahibinin ən qiymətli əşyalarını, ən əziz tikəsini əsirgəmədiyini də göstərir.

Süfrə mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan süfrə qabları haqqında Avropa səyyahlarının yol qeydlərindən, dolayısı ilə də olsa, məlumat ala bilirik. Bu baxımdan XVI əsrdə Şirvanda Abdulla xanın qonağı olmuş ingilis səyyahı A. Cenkinsonun qeydləri çox maraqlıdır: "...yerdə süfrələr açıldı və müxtəlif cür xörəklər verildi; xörəklər növlərinə görə cərgə ilə düzülmüşdü; mənim hesabıma görə süfrədə 140 cür xörək vardı. Bu xörəklər yeyildikdən sonra qabları süfrə ilə

birlikdə yığışdırıb, təzə süfrələr saldılar. Ortaya 150 növdə meyvə və başqa ziyafət yeməkləri gətirildi. Belə ki, iki dəfədə 290 cür yemək verildi"(29, s.203). Heç şübhəsiz ki, 290 çeşiddə yeməyin süfrəyə verilməsi üçün daha çox sayda süfrə qabından istifadə edilmişdir.



Misgərlik sənəti nümunələri olan mis qablar əsasən əhalinin orta təbəqəsinin süfrəsində üstünlük təşkil etmişdir. Zəngin sənət ənənələrinə malik Azərbaycanda misgərlik sənəti qədim tarixə malikdir. Ölkəmizin zəngin mis yataqlarına malik olması misgərlik sənətinin yaranıb inkişaf etməsi üçün zəmin yaratmışdır. Azərbaycan ərazisində qədim insanın mənimsədiyi ilk metal olan mis qalıqlarına ilk olaraq Eneolit abidələrində rast gəlinmişdir. Həmin abidələrdən əldə olunan bir sıra tapıntılar (muncuqlar, bizlər, qeyri-müəyyən formalı əşya qalıqları, bıçaq tiyəsinin qalığı və s.) (38; 26, s.78) mütəxəssislərə bu dövrdə Azərbaycanda metallurgiyanın inkişafı haqqında qəti fikir söyləmək imkanı verməsə də, ölkəmizin qədim sakinlərinin artıq e.ə. V minillikdə metalla tanış olduğunu təsdiqləyən dəyərli faktlardır. Yeri gəlmişkən qeyd edək ki, eyni dövrə aid eyni tipli materiallar türk xalqlarının məskunlaşdığı Mərkəzi Asiyanın cənubundan, xüsusilə cənubi-qərbindən də əldə edilmişdir (24, s. 7). Hər bir sənət sahəsi üzrə istehsalın inkişafını izləmək üçün həmin sənət sahəsinə aid istehsal alət və vasitələri, eləcə də emal məkanları əsas faktlar kimi qiymətləndirilir. Heç şübhəsiz ki, qədim insanlar digər sənət sahələrində olduğu kimi, metalişləmə sənətində də ilk məmulatları primitiv üsulla emal etmişlər. Arxeoloji qazıntılardan əldə olunan metaləritmə kürələri, ərinti qəlibləri, pasa qalıqları kimi dəlillər III minillikdən etibarən Azərbaycanda metallurgiyanın inkişafını təsdiqləyir. Bu tipli tapıntıların ən qədim nümunələri (metaləritmə kürəsi, körük ucluğu və pasa) Naxçıvanda Kültəpə və Qazax rayonunda Baba Dərviş abidələrinin tunc dövrü təbəqəsindən əldə olunmuşdur (37, s.17-19). Həmin tapıntılara əsasən mütəxəssislər Azərbaycanda metalişləmə sənətinin tarixini III minilliyə aid edirlər (39, c.78-79). Azərbaycanın Gədəbəy, Daşkəsən bölgələrindəki mis yataqlarında da metalişləmə sənətinin tarixini öyrənmək üçün qiymətli mənbə rolunu oynayan qədim mədən izləri və eyni zamanda, metaləritmə kürələri aşkar olunmuşdur (35,s.59). Ölkəmizin qədim sakinlərinin ilk başlanğıc yaşayış məskənlərinin qayaaltı sığınacaqlar və mağaralar olması (33,c.11-12), oda ilkin olaraq sahiblənməsi, misin ərintivermə qabiliyyətinin yüksək olması kimi amillər bu ərazidə insanların misi daha tez mənimsəməsini şərtləndirmişdir. Təsadüfi deyil ki, filiz yataqları ilə zəngin olan Qarabağ, Gədəbəy, Kəlbəcər, Zəngilan bölgələrində ibtidai insanlar təbii mağaralardan qədim dövrlərdən yaşayış məskəni kimi istifadə etmişlər (23, s.17). Ola bilsin ki, qədim insanlar məskunlaşdıqları ərazilərdə filiz süxurları üzərində ocaq qalamış və ya ocaq daşı kimi istifadə etmişlər, nəticədə ərinti əmələ gəlmiş və tədricən onlar həmin ərintidən istifadə etməyin sirlərinə yiyələnmişlər.

Alban ölkəsinin təbii sərvətləri haqqında dəyərli məlumat verən Moisey Kalankatuklu "Onun dağlarında qızıl, gümüş, mis və oxra çıxarıldığı"nı göstərirdi" (18, s.5). XIX əsrin sonlarında Cənubi Qafqazda istehsalın vəziyyətini tədqiq edən S.İ.Qulişambarov göstərirdi ki, "Qafqazda mövcud olan bütün mədən istehsalları arasında mis ən qədimi hesab olunur"(31,s.56). Arxeoloq İ.M.Cəfərzadə də bu fikri təsdiq edərək Cənubi Qafqazı metalın ilk kəşf olunduğu bölgələrdən biri hesab edir (32, s.33). Məlumat üçün qeyd edək ki, Qafqazda məlum olan 400 filiz mədənindən 300-ü məhz Kiçik Qafqaz bölgəsinə məxsusdur (34,s.60).








Azərbaycan misgərlik sənətini tarixən xammalla əsasən yerli mis mədənləri təmin etmişdir. Bununla yanaşı, orta əsrlərdə kənardan gətirilmə xammala da müraciət olunmuşdur. XIX əsrin ikinci yarısından etibarən Gədəbəy və Zəngəzur mis zavodlarının fəaliyyətə başlaması yerli mis istehsalının artımına səbəb olmuş, bu isə öz növbəsində misgər emalatxanalarının xammal təchizatında əsaslı dönüş yaratmışdır. XIX əsrin sonlarında Cənubi Qafqazda qeydə alınan 148 mis yatağının 70-i məhz Yelizavetpol Quberniyasında idi (31,s.56).

Metalişləmə sənətinin meydana gəldiyi ilk dövrlərdə misdən bəzək əşyaları, silah, müxtəlif əmək alətləri istehsal edilirdisə, tuncun meydana gəlməsindən sonra bu sənət sahəsi öz təmayülünü dəyişərək əhalinin məişət ehtiyaclarını ödəməyə yönəlmişdi. Buna işarə edən A.Mustafayev yazır: "Tuncun meydana gəlməsindən sonra mis özünün tətbiq sahəsini dəyişib, məişət ehtiyaclarına xidmət etməyə başlamış və beləliklə də metalişləmə sənətinin yeni bir sahəsi - **misgərlik** meydana gəlmişdir(19, s.188).

Zəngin xammal bazasının olması, xalqın məişət ehtiyacları, həmçinin yüksək sənətkarlıq qabiliyyətinə malik sənətkarların yetişməsi bu sənətin inkişaf etməsini təmin etmişdir. Misgərliyin müstəqil sənət sahəsi kimi formalaşması qab istehsalı ilə üzvi surətdə bağlı olmuşdur (19, s.188).

Mis qabların forma və çeşidlərinin yaranıb təkmilləşməsində yerli saxsı qab istehsalı nümunələrinin olması əsaslı rol oynamışdır. Belə ki, mis qab nümunələrinin demək olar ki, böyük əksəriyyəti saxsı qabların əsasında yaranmışdır. Kasa, cam, nimçə, aftafa, güləbdan, badya, xeyrə, sərnic, satıl, qablama, dolça və s. bu qəbildəndir. Uzun illərin davamlı təcrübəsi mis qablarda hazırlanan xörəklərin öz dadı və keyfiyyətinə görə üstünlüyünü müəyyən etmişdir. Eyni zamanda mis

qabların saxsı qablara nisbətən sınmaya davamlı olması (portativliyi) onların məişətə geniş ayaq açmasını şərtləndirmişdir. “Mis ki, gəldi, saxsı, qaç”, “Saxsıya verə-verə çıxdı misin bahası”- kimi atalar sözləri etibarlı mənbə olaraq fikirimizi təsdiqləyir. XVI əsrin 80-ci illərində Şirvanda olmuş ingilis taciri C.Deketa yazırdı ki, onların evində xalça və mis qablar istisna olmaqla, avadanlıq çox azdır, ona görə ki, yemək hazırladıqları və yedikləri bütün qablar misdəndir ( 30,s.199-200).

Mis emalının istidöymə və soyuqdöymə, kəsmə, həkketmə və s. kimi texnoloji proseslərinin tunca nisbətən asan olması da bu sənətkarlıq sahəsinin inkişafına təkan vermişdir. Bununla belə, ucuz və asan başa gələn dəri, ağac, saxsı qablara nisbətən mis qabların çətin və baha başa gəlməsi misgərliyin uzun müddət geniş yayılmasına əngəl törətmişdir. Metalişləmə sənətinin tarixi təkamül prosesini izləyən etnoqraf A.Mustafayevin fikrincə, “Azərbaycan ərazisinin zəngin mis yataqlarına və burada metallurgiyanın məhz bu qiymətli xammal bazası əsasında təşəkkül tapmasına baxmayaraq, metal qab istehsalı, başqa sözlə, misgərlik uzun müddət kütləvi istehsal sahəsinə çevrilə bilməmişdi” (19, s.175-176). Müəllif bunun səbəbini dulusçuluğun inkişafı, eyni zamanda, “məişət qablarına olan tələbatın saxsı, ağac, dəri və toxuma məmulatları vasitəsilə təmin olunmasında” görür, arxeoloji abidələrdən əldə olunan tapıntılar arasında metal qabların azlıq təşkil etməsini də həmin səbəblə bağlayır (19, s.176). Tarixçi-alim K.Əliyev də qəbir abidələrindən əldə olunan materiallara əsasən Albaniya ərazisi üçün metal qabların xarakterik olmadığını göstərir (28, 242). Bizə elə gəlir ki, mis qab nümunələrinin azlıq təşkil etməsinin səbəblərindən biri saxsı, dəri, ağac və toxuma məmulatlarından fərqli olaraq misin təkrar emala getməsi ilə əlaqədardır. Köhnəlmiş, yırtılmış qablar əridilərək yeni qablar düzəldilirdi. Bu proses mis emalının bütün tarixi boyu davam etdirilmişdir. Eyni zamanda qızıl və gümüş kimi mis də vaxtaşırı işğallar zamanı qənimət kimi ölkədən xaricə aparılmışdır. Bir məsələni də unutmaq olmaz ki, metal qablar baha başa gəldiyindən yalnız imkanlı zümrənin məişətinə daxil olurdu ki, bu təbəqə də əhalinin az bir qismini təşkil edirdi. Antik dövr Azərbaycan şəhərlərində nüfuzlu feodalların şəxsi emalatxanalarında bilavasitə onların öz ehtiyacları üçün qablar istehsal olunurdu (36, s.96-97).

Milli Azərbaycan Tarixi Muzeyinində mühafizə olunan ən qədim mis qab nümunəsi Arxeologiya fondunda (AF) yer alan Əliköməktəpədəki torpaq qəbirdən tapılmış orta tunc dövrünə aid qazandır (2). Bu qazan bir növ XX əsrin ortalarına kimi xalqın istifadəsində olmuş sərnic və satılların oxşarıdır. Qazanın hər iki tərəfinə bərkidilmiş qulpları onun asılaraq istifadə olunduğunu göstərir. Məlumat üçün qeyd edək ki, dil yaddaşımızda qorunub saxlanan “yemək (xörək və ya qazan) asmaq” frazioloji ifadəsi vaxtilə qazanların asılaraq istifadə olunmasından qalan mirasdır (“aş” sözü də məhz buradan yaranmışdır).





Digər maraqlı nümunə Muzeyin Arxeologiya fondunda mühafizə olunan son tunc-ilk dəmir dövrünə aid qazandır (3). Bu qazan Etnoqrafiya fondunda (EF) mühafizə olunan qazanı (7) forma baxımından eynilə təkrarlayır. Bu isə, bu növ qazanların minilliklər boyunca dəyişikliyə uğramadan xalqın istifadəsində olduğuna bir şəhadətdir.

Orta əsrlər dövrünə aid mis məmulatları əsasən sarı misdən hazırlanmışdır. Bu dövrdə Təbriz, Ərdəbil, Marağa, Salmas, Bərdə, Beyləqan, Dərbənd, Şamaxı, Şəki, Gəncə, Bakı, Naxçıvan, XVIII əsrdən etibarən isə Quba və Şuşa şəhərləri mis məmulatı istehsalının başlıca mərkəzinə çevrilmişdir.



XIX əsrdən etibarən Lahıc kəndi mis məmulatı istehsalında aparıcı mövqe tutaraq, əhalinin mis qablara olan tələbatının böyük hissəsini ödəmişdir. Bu dövrdə Lahıc təkcə Azərbaycanda deyil, eləcə də bütün Cənubi Qafqazda misgərliyin başlıca mərkəzi sayılırdı. XIX əsrin sonlarına aid bir mənbədə göstərilir ki, Lahıc kəndinin 1000 nəfərədək sakini misgərlik və onunla bağlı peşələrlə məşğuldur (25,s.180). Lahıc özünün məhsulları və eləcə də bacarıqlı ustaları ilə onu Cənubi Qafqazın misgərlik məktəbi hesab etməyə əsas verir (27, s.99). Misgər dükanları Lahıcın ən məşhur məhəlləsi – "Şah məhəllə" adlanan Ağəli məhəlləsində yerləşmişdi. Bu gün də XIX əsrə aid olan iki dükan - Hacı Gülməmmədin və Baladayının dükanları öz fəaliyyətlərini davam etdirir. Lakin istehsalın təmayülü dəyişərək köhnə qabların bərpası, eyni zamanda zavod istehsalı (Gəncə) olan hazır mis təbəqələrdən qazan, teşt və dekorativ qabların hazırlanmasına yönəlmişdir.





Xalqın məişət ehtiyaclarının tələbindən asılı olaraq misgərlər 80 növdə məmulat hazırlamışdır (22, s.42). Bu qablar "izafə", (yəni bir neçə hissədən ibarət - güyüm, aftafa, sərpuş və s.), "xara" (sadə formaya malik - qazan, aşsüzən, xəkəndaz və s.) olmaqla, eyni zamanda "çarxı" və "qaratapdaq" növlərinə bölünür. Çarxı istehsal texnologiyasından keçən qablar çarxa verilərərk çəkic izləri dəf olunur, qaratapdaq qablarda isə əksinə, çəkic izləri olduğu kimi saxlanırdı. Cehizlik, evlərin daxili interyerinin bəzədilməsi, süfrəyə düzmək üçün istehsal olunan qablar çarxı istehsal texnologiyasına məxsus olmaqla həm də naxışlanırdı. Naxışlama prosesi yüksək səriştəli həkkaklar tərəfindən icra olunurdu.

Azərbaycan metalişləmə sənətkarlığında naxışsalma ənənəsinin tarixi minilliklərə dayanır. Öz başlanğıcını qayaüstü təsvirlərdən götürən bu ənənə özünəməxsus inkişaf yolu keçmişdir. Bu sənətkarlıq ilkin mərhələdə sadə (düz, dalğalı və sınıq xətlər, bucaq, üçbucaq, romb və s.) formalara malik olmuşdursa, tədricən mürəkkəb motivli xüsusi məzmun kəsb edən süjetli ornament motivləri və çoxfiqurlu kompozisiyalar yaranmış, tunc məmulatlar üzərində olan insan və heyvan obrazlı təsvirlərin hamısı özünəməxsus hərəkət dinamikasında verilmişdir (4, s.98-99). Ərəblərin Azərbaycanı işğal etməsindən sonra ideologiyada baş verən kəskin dəyişikliklər sənətkarlığa da öz təsirini göstərmiş, xalq mifoloji düşüncəsinin məhsulu olan obrazlar, nağıl qəhrəmanlarından ibarət təsvirlər sıxışdırılaraq aradan çıxarılmış, onların yerini islam mədəniyyətinə məxsus naxış elementləri almışdır.



Müşahidələr göstərir ki, məişət qabları üzərində XI-XIII əsrlərdə ərəb dilli kufi xətli kitabələrdən istifadə edən ustalar, artıq XIV əsrdən başlayaraq nəstəliq, süls və nəsx xətli fars dilli kitabələrə üstünlük verməyə başlamışlar (13, 12,616). Məişət qabları üzərindəki kitabələri araşdıran görkəmli epiqraf-alim Məşədixanım Nemət göstərir ki, "...məişət qabları üzərində daha çox dövrün klassiklərinin - Nizami Gəncəvi (1141-1209), Ömər Xəyyam (1048-1131), Sədi Şirazi (1184- 1291/2), Əmir Xosrov Dəhləvi (1253-1325), Hafiz Şirazi (1320-1390) kimi şairlərin qəzəl və rübailəri həkk edilmişdir"(20, s.45). Fars dilində olan şeiriyyət, eyni zamanda Orta əsrlərdə yazıb-yaradan klassik Şərq şairlərinin (Sədi Şirazi, Hafiz Şirazi, Ömər Xəyyam) əsərlərində islamın qoyduğu

qadağalara baxmayaraq mey məclislərinin ruhuna uyğun motivlərin olması belə şeir parçalarının qablar üzərinə həkk olunmasına şərait yaratmışdı.

Kitabələrə xüsusən "adam içinə çıxarılan" – yəni, sərpuş, qablama qazan, qapaq, nimçə, məcməyi, şərbətxor, güləbdan, cam, kasa, satıl və hamam tasları üzərində təsadüf olunur. Bu kitabələrdə əsasən müqəddəs Qurani-Kərimdən ayələr, müqəddəslərin adları, klassiklərin əsərlərindən şeir parçaları, qab sahibinin, nadir hallarda isə ustanın adı (8) və tarix həkk olunmuşdur. Fond materialları üzərində aparılan araşdırmalar göstərir ki, qabların əksəriyyətində sahibinin adı həkk olunmuşdur. Məlumdur ki, türk xalqları arasında öz mal-qarasına damğa, nişan vurmaq ənənəsi mövcud olmuş, hətta həmin damğaların bir qismi (xüsusən xalçalar üzərində) dövrümüzədək gəlib çatmışdır. İslamın qəbulundan sonra sənətkarlıq nümunələri, eləcə də metal əşyalar üzərində möhürlərdən istifadə olunmağa başlanmışdır. Qabın üzərində sahibinin adının yazılması məişət qayğıları ilə bağlı olmuşdur. Belə ki, mərasimlər zamanı məclisi təmin etmək üçün qablar ayrı-ayrı evlərdən toplanırdı. Hər bir ailə qabının dəyişik düşməməsi və ya itməməsi üçün onun üzərinə müəyyən işarələr qoyurdular (Bu ənənəyə bölgələrimizdə indi də rast gəlmək mümkündür).

Kitabələrdə qadın adlarına nadir hallarda təsadüf olunur. Azərbaycan ailəsində mövcud olan patriarxal qaydalardan irəli gələn mühafizəkar adətlər qadın adlarının qablar üzərində həkk olunmasına imkan vermirdi. Hətta XIX əsrin sonu- XX əsrin əvvəllərində keçirilən sərgilərdə qadınların toxuduğu xalçalar, tikdiyi tikmələr kişilərin adı ilə qeydiyyatdan keçirilirdi. Yalnız xalq arasında xüsusi hörmətə sahib, ağbirçək, el anası kimi sayılıb-seçilən, eyni zamanda ailə başçısını itirmiş qadınların adlarının xalq dili ilə desək "ortalığa çıxarılması" qəbahət sayılmırdı. Aparılan araşdırmalar nəticəsində qablar üzərində yalnız "Maral xanım" (EF8333, EF8334, EF8337, EF8339), "Sahibi Şəms" (EF7375), "Sahibi Fatimə bəgim finti Məhəmməd şah" (EF5350) və "Mahizər xanım" (EF8795) adlarına rast gəlinmişdir.

Qabların üzərində nəbati, zoomorf, həndəsi, astral təsvirlər də geniş yer almışdır. İslamdan əvvəlki naxış üslubuna nadir hallarda Orta əsrlər dövrünə, hətta XIX əsrə aid olan mis qablar üzərində təsadüf edə bilirik(9). Bu naxışlar etnoqrafik mənbə rolunu oynayaraq, xalqımızın geyim və musiqi mədəniyyəti, eyni zamanda oyun və əyləncələri haqqında məlumat verməyə qabildir.

Qeyd etmək lazımdır ki, XII – XVIII əsrlərə məxsus qabları XIX əsrin sonu-XX əsrin əvvəllərində istehsal olunmuş qablarla müqayisəsi onların aralarında kəskin fərqlərin olduğunu göstərir. Belə ki, əgər XIX əsrə qədər sənətkarlar çox vaxt sifarişlə işləyirdisə, artıq XIX əsrdən etibarən əmtəəlik məhsul istehsal edən sənətkar keyfiyyətə deyil, kəmiyyətə üstünlük verirdi. Belə olan halda qablar üzərinə vurulan naxışlar getgedə sadələşir, seyrəlir, bu da qabın estetik gözəlliyinə öz mənfi təsirini göstərirdi. Sözsüz ki, naxış nə qədər sıx, nə qədər zərif olarsa, məmulatın bədii dəyəri o qədər yüksək olur, sənətkarlıq baxımından yüksək qiymətləndirilirdi. Həkkak sənətkarların söylədiyinə görə belə qabların ərsəyə gətirilməsi üçün qabın həcmindən asılı olaraq 1-2 il vaxt lazım gəlir(16). Belə qablar baha qiymətləndirildiyinə görə alıcısı az olur, misgər üçün iqtisadi baxımdan o qədər də sərfəli hesab olunmurdu. Digər tərəfdən ucqarlarda yerli tələbata uyğun məhsullar istehsal edərək bazarları ələ keçirməyə çalışan Rusiya kapitalizminin amansız rəqabətinə davam gətirmək üçün



də sənətkarlar məmulatın ucuz başa gətirilməsinə məcbur idilər. Bütün bunların nəticəsində XIX əsrin sonlarına doğru istehsalın artan tempi sürətlə aşağı düşməyə başlayır. Məlumat üçün qeyd edək ki, Lahıcda 1850-ci ildə 22 misgər dükanı fəaliyyət göstərirdisə (40, s.5), 1884- cü ildə onların sayı artaraq 380 işçini birləşdirən 100 dükana çatmışdı (35, s.6). Artıq 1894-cü ildə bu dükanların sayı azalaraq, 140 misgərin işlədiyi 50 dükana düşür (40, s.10). XIX əsrin sonlarına aid bir mənbədə Lahıcda qab istehsalının tənəzzülə uğramasının səbəbləri aşağıdakı kimi izah olunur: Cənubi Qafqazda mis mədənlərinin emalının əlverişliliyi qiymət artımına səbəb olan rəqabət yaratmışdı; misdən sənaye üsulu ilə ucuz qab istehsalı isə kustar istehsalı sıxışdırmağa başladı. Xammalın baha olması əl əməyinə əsaslanan qabların da baha başa gəlməsinə səbəb oldu ki, bu da istehsalçının gəlirlərini aşağı saldı. Bu vəziyyət sənətkarların əksəriyyətini işi dayandırmağa məcbur etdi (27, s. 101 ).

Mis qab üzərində müəyyən təsvir yaratmaq üçün əvvəlcə onun eskizi çəkilir, sonra həmin çeşni təyin olunmuş qaba köçürülürdü. Etnoqrafiya fondunda 1938-ci ildə lahıclı ista Seyid ağa Musa oğlu tərəfindən çəkilmiş müxtəlif çeşni nümunələrindən ibarət albom mühafizə olunur (10). Albomda məişət qablarının bəzədilməsi üçün nəzərdə tutulmuş 30 çeşni və nəqqaşlıq sənətində istifadə olunan əmək alətlərinin təsviri yer almışdır. Nəqqaşlar əvvəlcə çeşnini qab üzərində çəkir, sonra qazma (döymə) üsulu ilə onu qaba həkk edirdilər. Qablar üzərindəki kitabələrin mətnlərinə əsasən deyə bilərik ki, həkkakların bir qismi yazıb oxumağı bacarmamış, bu səbəbdən bəzən seçdikləri şeirlərin misralarında pərakəndəlik yaranmış, bəzənsə mətni qab üzərində yerləşdirə bilmədikdə yarımçıq buraxmışlar. Lakin bütün bunlara baxmayaraq, yüksək peşəkarlığa məxsus sənətkar olduqlarını nümayiş etdirərək kamil sənət nümunələri yarada bilmişlər.

Aparılan tədqiqatlar göstərir ki, qabların üzərində yazılan kitabələr təyinatına uyğun olaraq seçilmişdir (14). Məsələn, sərpuşlar üzərindəki kitabələr yeməklə, süfrə ilə bağlı, piyalələr üzərindəki yazılar şərab, şərbət, məcməyi və nimçələr üzərindəki kitabələr isə bərəkət haqqında kəlamlardan ibarətdir. Bu qəbildən olan qablar üzərində daha çox Sədi və Hafizdən seçmə şerlər nəqş olunmuşdur. Bəzi qablar islam ənənələrinə uyğun olaraq Seyyid şəhidlərinə "vəqf" olunmuşdur(11)

Gündəlik tələbat üçün nəzərdə tutulan bütün qablar ən azı ildə bir dəfə qalaylanmalı idi ki, bu da qalayçılıq sənətinin inkişafına imkan yaratmışdı. Buna görə də misgərlik sənətinin bir qolu olan qalayçılıq onunla paralel olaraq fəaliyyət göstərmişdir. Mis qabların məişətə geniş şəkildə daxil olduğu vaxtlardan etibarən bu sənət sahəsi xalqın tələbatını ödəmişdir. Qalayçılar həm misgər dükanlarında, həm də səyyar şəkildə fəaliyyət göstərirdilər. Uzaq kəndlərin şəhərlə əlaqəsi zəif olduğundan, qalayçılar qazanc məqsədilə ləvazimatlarını ata və ya ulağa yükləyərək, kəndbəkənd gəzir, sifarişləri yerindəcə qəbul edirdilər. Qalayçıların səyyar sənət fəaliyyətləri öz əksini ***"Dədəm üçün yer saldım, gəldi qalayçı yatdı"-*** xalq məsəlində tapmışdır(1, s.182-183).

XX əsrin əvvəllərindən etibarən fabrik-zavod istehsallı qabların Azərbaycanda kütləvi şəkildə yayılması mis qab istehsalını tənəzzülə uğratmış və mis qablar tədricən məişəti tərk edərək, muzey fondlarının dəyərli eksponatlarına çevrilmişlər. Bununla belə mis qazan və məcməyilərin, xüsusən də "xeyir-şər" qazanlarının istehsalı XX əsrin 80-ci illərinə qədər davam etmişdir. Stalin dövrünün xalqımıza gətirdiyi ağır bəlalar sənətkarlıqan da yan keçməmiş, ustad sənətkarların aradan götürülməsi ilə yanaşı, sənətkarlıq məhsullarının məhv edilməsinə də səbəb olmuşdur. "Kulak"a düşmək təhlükəsindən qorunmaq üçün bir qisim insanlar evlərində olan dəyərli əşyaları (xalça, mis qab) torpağa basdırır, üzərinə su axıdaraq çürütməyə çalışırdılar (17). 1963-cü ildə arxeoloq Saleh Qazıyevin Ağdaş rayonu yaxınlığındakı meşədən taparaq Milli Azərbaycan Tarixi Muzeyinə təhvil verdiyi mis qab (16s.v.) dəfinəsi çox güman ki, həmin səbəbdən torpağa basdırılmışdır(12).

Mis məmulatlarının etnoqrafik təsnifatında əsas meyar onların tətbiq sahəsidir. Əməli-məişət vəzifəsinə görə mis qablar su qabları, xörək bişirmək və süfrəyə vermək üçün istifadə olunan qablar, ağartı qabları və məişət əşyaları kimi növ və qruplara bölünür.

Haqqında bəhs etdiyimiz süfrə qabları da öz növbəsində bir neçə qrupa bölünür. Bu qablar xörəyi və içkiləri süfrəyə vermək, yemək və içkilərin qəbulu üçün istifadə olunan, meyvə qabları,

ədviyyat qabları kimi qruplaşdırıla bilər. Güləbdan və şərbətxorlar mərasim məclislərində istifadə olunduğuna görə onları da süfrə qabları sırasına daxil etmək mümkündür. Yeməyi süfrəyə vermək üçün məcməyi, sini, qablama, badya; içkilərin süfrəyə verilməsi üçün şərbətxor, samovar, qəhvədan, çaynik; yemək üçün nimçə, kasa; içki üçün cam, şərbəti və piyalələrdən istifadə olunmuşdur.

Etnoqrafiya elmi fond şöbəsində keçmiş məişətdə istifadə olunan mis süfrə qablarının böyük çeşidindən ibarət zəngin kolleksiya toplanmışdır. Fondda 111 saxlama vahidi sərpuş, 204 s.v.cam, şərbəti və kasa, 101 s.v. nimçə və sini, 59 s.v. qablama qazan, 37 s.v. qapaq, 9 s.v. badya, 5 s.v. güləbdan, 6 s.v. şərbətxor, 4 s.v. qovurma qabı mühafizə olunur. Keçmiş məişətdə süfrələri samovarsız təsəvvür etmək mümkün deyildi. Bu gün də samovar məişətdə, çayxanalarda, bayram və mərasimlərdə geniş şəkildə istifadə olunur. Samovarların qaynadılaraq süfrə kənarına qoyulmasını nəzərə alsaq onları da süfrə qabı kimi təqdim etmək mümkündür. Fondda 45 s.v. samovar mühafizə olunur. Bundan başqa qəhvədan və dəm çayniklərini (15 s.v.) də süfrənin ayrılmaz tərkib hissəsi hesab etmək olar. Samovarlar əsasən Rusiya, Almaniya və Fransada istehsal olunmuşdur. Şəki şəhərindən tapılmış II minilliyə aid daş samovar isə Azərbaycan ərazisində samovarın daha qədim dövrə aid olmasını göstərən əşyayi- dəlildir.

Qəhvədanlar məişətimizdə geniş şəkildə istifadə olunmuşdur. Əsas istehsal mərkəzi Özbəkistan hesab olunan qəhvədan (çoydiş) Orta Asiya və Türkiyədə geniş yayılmışdır. Özbək milli mədəniyyətinin gözəl nümunələrindən hesab olunan qəhvədanlar bədii tərtibatının mükəmməlliyi ilə diqqəti cəlb edir. Bu tipli məmulatlar Azərbaycana ticarət əlaqələri, hədiyyə və ola bilsin ki, ailə-kəbin münasibətləri vasitəsilə gətirilmişdir. Fondda mühafizə olunan 3 s.v. qəhvədan özbək sənətkarlarının XIX əsrin sonlarına qədər qoruyub saxladığı (9, s.11) zərbetmə və şəbəkə üsulu ilə bəzədilmişdir. Sonrakı dövrlərdə nəfis tərtibatlı qəhvədanları sənaye istehsalı olan sadə və emallı qəhvədanlar məişətdən sıxışdırıb çıxarmışdır.

Azərbaycan xalqının yüksək süfrə mədəniyyətindən soraq verən aftafa-ləyənlər mis qabların təsnifatında su qabları sırasında dursa da əsasən məclislərdə istifadə olunurdu. Adətən məclisdən əvvəl və sonra cavan bir oğlan uşağı dəsmalı qolunun üstünə atar, əlində aftafa-ləyən məclisi gəzərək əyləşənlərin əlinə su tökərdi. Aftafalar məclis qabı olduğuna görə estetik gözəlliyinə xüsusi diqqət verilirdi. Ləyənlə aftafa bərabər su tutumuna malik olurdu. Ləyənin ağzına qoyulan torlu qapaq isə çirkab suyun görünməsinin qarşısını alırdı. Etnoqrafiya fondunda bu tioli aftafa-ləyənlərin 53 nümunəsi mühafizə olunur.

Sevindirici haldır ki, müasir dövrümüzdə keçmiş məişətə qayıdış mütəşəkkil hal almışdır. Samovar, mis qazanlar yenidən məişətdə istifadə olunur, evlərin daxili interyerinin bəzədilməsində dekor rolu oynayır, rəssamlar natürmort kimi mis qablardan geniş şəkildə istifadə edirlər.

Mis qablar Azərbaycan xalqının qədim tarixə, yüksək bədii zövqə, zəngin məişət mədəniyyətinə, incə sənətkarlıq qabiliyyətinə malik olmasını sübut etmək üçün dəyərli maddi mədəniyyət nümunələridir. Azərbaycan xalqının dünya mədəniyyəti xəzinəsinə bəxş etdiyi sənət inciləri sırasında misgərlik nümunələrinin də xüsusi payı vardır və bu qablar Azərbaycan sənətkarlıq mədəniyyətinin türk dünyası mədəniyyətindən qaynaqlandığını, onun bir hissəsi olduğunu təsdiqləyir, Şərq mədəniyyəti ilə əlaqəli şəkildə inkişaf ını göstərir.

**İstifadə olunmuş mənbə və ədəbiyyat siyahısı:**

1. Abdulova G. Atalar sözləri və xalq məsəlləri etnoqrafik duyum-yozum kontekstində. Bakı, 2012.
2. AF 989, qazan, mis dm: 32,5, hündürlüyü: 21sm, e.ə.II minilliyin I rübü, Cəlilabad rayonu. Əlikömək təpə yaşayış yeri.
3. AF 988, qazan, mis, hündürlüyü: 16sm, oturacağı: 42sm, ağzı: 35sm, Gəncə, Çovdar.
4. Avşarova İ. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e.ə. XIV-VII əsrlər).Bakı, 2007.
5. Bünyadova Ş. Qonaqpərvərlik. Azərbaycan etnoqrafiyası, 3 cilddə, III cild. Bakı, 2007.
6. EF 6020; EF 2617.
7. EF 5363, qazan, mis, hündürlüyü: 21sm, oturacağı: 48sm, ağzı: 33sm, XVIII əsr, Ağdaş.
8. EF 9630, EF 245, EF 4134, EF3422, EF3166, EF8175, EF4783.
9. EF297, EF5266, EF1514, 2088.
10. EF2753. Albom.
11. EF2071, EF2074, EF1777, EF1778.
12. EF 5350-5366.
13. Əfəndiyev R.S. Azərbaycanın bədii səntkarlığı (metal məmulatı və zərgərlik). Bakı: Azərnəşr, 1964.
14. Əliyeva H. Sənət nümunələri üzərində kitabələr. Azərbaycan Tarixi Muzeyi. Bakı: Ziya-Nurlan, 2006, s.357-360.
15. Kitabi –Dədə Qorqud, Bakı, 2004.
16. Məlumatı İsmayıllı rayonu Lahıc kənd sakini nəqqaş Şaiq Süleymanov vermişdir.
17. Məlumatı Ağdam rayonu Seyidli kənd sakini Kifayət Axundova; Şamaxı rayon Qaleybuğurd kənd sakini Minayə Gərayova; Cəbrayıl rayonu Horovlu kənd sakini Nəcibə Mikayılova vermişdir.
18. Moisey Kalankatuklu. Albaniya tarixi. Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bünyadovundur.- Bakı, 1993.
19. Mustafayev A.N. Azərbaycanda sənətkarlıq. Bakı, 1999.
20. Nemət M. Mis qablar üzərində kitabələr. Milli Azərbaycan Tarixi Muzeyinin toplusu, Bakı, 2001.
21. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı, 2004.
22. Quliyev H., Tağızadə N. Metal və xalq sənətkarlığı. Bakı, 1968.
23. Vəliyev F.İ. Xalq yaşayış məskənləri və evlər. Azərbaycan etnoqrafiyası, 3 cilddə, II cild, Bakı, 2007.
24. Абдуллаев. Т.Каталог медных и медночеканных изделий Узбекистана XVIII-XX веков. Ташкент, 1974.
25. Абелов Н.А. Экономический быт государственных крестьян Геокчайского и Шемахинского уездов Бакинской губернии – МИЭБГКЗК, VII ч, Тифлис, 1887.
26. Абибуллаев. О.А.Енеолит и бронза на территории Нахичеванской АССР. Баку, 1982.
27. Ализаде А. Лагич. Баку, 2010.
28. Алиев К. Кавказская Албания. Баку, 1974 .
29. Английские путешественники в Московсквом государстве в XVI веке (перевод с английс. Ю.В.Готье) Л.,1937.
30. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана в XIII-XVII вв. Баку, 1982.
31. Гулишамбаров С.И. Обзор фабрик и заводов Закавказского края. Тифлис, 1894.

32. Джафарзаде И.М. Следы древнейшей культуры человека на территории Азербайджана // Сборник статей по истории Азербайджана. , вып.1, Баку, 1949.

33. Джафарзаде И.М. Древнейшей период истории Азербайджана (по археологическим данным). – Очерки истории Азербайджана. Баку, 1956.

34. Казиев С.М. Родовой строй в древнем Азербайджане. Изд. АЗФАН СССР, Баку, 1944.

35. Кашкай М.А. Основные етапы истории развития геологии и разработки полезных ископаемых на Кавказе// Летопись науки в Азербайджане(техника). Баку, 1969

36. Кошкарлы К.О. Античная и раннесредневековая торевтика из Азербайджана. Баку, 1985.

37. Махмудов Ф.Р. Мунчаев Р.М. Нариманов И.Г. О древнейшей металлургии Кавказа// СА, 1968, №4.

38. Нариманов И.Г. Салимханов. И.Р. К применению первых металлов в быту населения Восточного Закавказья. «ДАН Азерб.ССР», 1965, №4, s.17-19.

39. Пиотровский. Б.Б. Археология Закавказья. Л.,1949.

40. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX вв. Баку, 1964.

## Summary

**Gulzade Abdulova**

### Place of the copperwaers in the food culture of Azerbaijan (on the base of materials of the National Museum of History of Azerbaijan)

***Key words:*** *Copperware, food culture, dining utensils, museum founds*

The article deals with the historical-ethnographical research of copperwares widely used in people's welfare in the middle ages and the first half of XIX-XX centuries. The great attention in the article is paid to the origin of copper art in Azerbaijan. The copperware is stored in the Fund of Archeology and Ethnography of the National Museum of History of Azerbaijan is analyzed comparatively, the classification of copperwares also is given, its role in welfare is shown and the great importance of the inscriptions on these copperwares from ethnographical poi nt of view is reviewed in the article, as well.

## Резюме

**Гюльзаде Абдулова**

### Место медной посуды в культуре еды Азербайджана (по материалам Национального музея истории Азербайджана)

***Ключевые слова:*** *медная посуда, культура еды, столовая утварь, музейные фонды*

Статья посвящена историко-этнографическому исследованию медной посуды, которая широко использовалась в азербайджанском быту в средние века, а также в XIX-первой половины XX века. В статье уделено внимание историческим корнем медного ремесла, дан сравнительный анализ медной посуды, которая хранится в фондах археологии и этнографии Национального музея истории Азербайджана. В статье дана классификация медной посуды, показана ее роль в быту, отмечено этнографическое значение надписей на посуде.